# Novruz bayramı rənglər dünyasında

**Azərbaycan xalqının tarixində zəngin adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən Novruz bayramının özünəməxsus yeri var. Novruz yeni gün, təzə il deməkdir, hamımızın intizarla gözlədiyimiz baharın ilk günüdür. "Novruz" halallıq, təmizlik, müdriklik və kamillik bayramıdır. Novruz gəlişi ilə, atdığı ilk qədəmləri ilə evlərə, ailələrə sevinc, şadlıq gətirir. Novruzun gəlişi ilə təbiət oyanır, torpaq canlanır, ağaclar tumurcuqlanıb çiçəkləyir, dağ-dərələr, meşələr yaşıllığa bürünür. Sözün həqiqi mənasında, həyat yenidən başlayır. İnsanlar çox haqlı olaraq bu fəsli gözəllik və xoş ovqat fəsli adlandırırlar.**



Novruz bayramının adət-ənənələri elmi əsərlərlə yanaşı, ədəbiyyatımızda, filmlərimizdə də bədii surətdə əks olunmuşdur. Bütün bunlar isə tamaşaçılar və oxucular tərəfindən zaman-zaman böyük maraqla qarşılanmışdır. Novruz bayramı mövzusu təsviri sənətdən də yan keçməmişdir. Bu bayramın insanlarda yaratdığı nikbin ovqat rəssamlarımızın yaradıcılığında geniş yer tutmuşdur. Ötən əsrin altmışıncı illərində Novruzun ümumxalq bayramı kimi qeyd olunması rəssamlarımızın bu mövzuya marağını daha da artırmışdır. Bayramın ayrı-ayrı epizodlarını özündə əks etdirən dəyərli əsərlər yaranmışdır.



Azərbaycanın satirik qrafikasının əsasını qoymuş, adı sənətsevənlərin dilindən düşməyən görkəmli rəssam Əzim Əzimzadə bayramlar mövzusuna müraciət edən ilk sənət adamlarından olmuşdur. O, ötən əsrin 30-cu illərindən başlayaraq "Kos-kosa", "Qurban bayramı" , "Kasıb evində toy", "Varlı evində Ramazan" , "Od çərşənbəsi" , "Kasıb evində Ramazan süfrəsi" və sair rəsm əsərləri çəkmişdir. Rəssamın araya-ərsəyə gətirdiyi bu və ya digər əsərlərində adət-ənənələrimiz, el şənliklərimiz, milli bayramlarımız maraqlı epizodlarla əks olunmuşdur. Ə.Əzimzadə bayram mövzusunda çəkdiyi rəsmlərdə hadisələri nikbin boyalarla təsvir etmiş, adət-ənənələri, milli koloriti, ən əsası isə zəngin olan folkloru qoruyub saxlamağı bacarmışdı.

Çəkdiyi əsərləri ilə xalqın böyük sevgisini qazanmış istedadlı, bənzərsiz mənzərə ustalarımızdan olan Səttar Bəhlulzadə milli bayramlar, adət-ənənələrimiz mövzusunda bir-birindən maraqlı və dəyərli əsərlər çəkmişdir. "Bahar nəğməsi", "Xonça" (etüd), "Torpağın arzusu", "Azərbaycan nağılı" və bu kimi əsərlərində təbiətin çoşqun sevincini böyük sənətkarlıqla təsvir etmişdir.

Görkəmli sənət adamı Elmira Şahtaxtinskaya çəkdiyi "Novruz bayramı



ərəfəsində", "Qutablar" adlı əsərlərlərində Azərbaycan xalqının ən qədim adət-ənənələrini böyük məharətlə yaradıb. Rəssamın Novruz bayramına hazırlıq mərhələsində qadınların səmənilərin əhatəsində milli şirniyyat növləri - paxlava, şəkərbura, digər əsərində isə milli ornamentli kilim üzərində əyləşmiş üç qadının Azərbaycan mətbəxinin ləziz nemətlərindən hesab olunan qutab hazırladıqları an çox böyük ustalıqla təsvir edilib. Adlarını çəkdiyimiz bu əsərlərdə bayram səhnəsi bütün çalarları ilə diqqətləri cəlb edir.

Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Elbəy Rzaquliyev İçərişəhərdə dünyaya göz açıb, Abşeronda böyüyüb. Rəssam yaddaşına hopmuş nostalji xatirələri, təbiətin füsunkar mənzərələrini, iştirakçısı olduğu hadisələri böyük bacarıqla əsərlərinə köçürüb. Xatirələrini, arzularını rənglərin dili ilə ifadə edib. Görkəmli rəssamın milli bayramımıza həsr etdiyi "Novruz bayramı" kompozisiyasında Xəzər dənizinin fonunda, İçərişəhərdə Novruz bayramı şənlikləri təsvir olunub. Milli geyimdə olan gözəl qızların rəqs etməsi, əllərində çalğı alətləri tutmuş musiqiçilər, kəndirbazın oyunu, tablonun sağ tərəfində yellənən milli ornamentli xalça nümunəsinin təsviri əsərin bədii ifadəliyini daha da artırır, baxanlarda əsl bayram ovqatı yaradır.

Tanınmış rəssamlar Xalidə Səfərova, Ələkbər Rzaquliyev, Nəcəfqulu İsmayılov, Sara Namitokova-Manafova, Arif Ələsgərov və başqaları Novruz bayramı mövzusunda bir-birindən maraqlı əsərlər ərsəyə gətiriblər. Bu əsərlərdə Novruz adət-ənənələri, el şənlikləri, milli bayramlar öz əksini çox parlaq şəkildə tapıb.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 mart (№ 61).- S.19.